# UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ VƏ GƏNC NƏSLİN PEŞƏ TƏHSİLİ PERSPEKTİVLƏRİ



**Kamil Fərəcov,**
*Elm və Təhsil Nazirliyinin Uşaqların Müdafiəsi İdarəsinin Ümumi təhsil müəssisələrində təhsilalanların hüquqlarının müdafiəsi işinin təşkili şöbəsinin baş mütəxəssisi*
*e-mail: kamilfarajov92@mail.ru*
*https://doi.org/10.30546/2706-7858.2025.3.3002*

**UOT:** 342.7; 37
**Xülasə**. *Uşaq hüquqlarının müdafiəsi və gənc nəslin peşə təhsili imkanlarının inkişafı bir-biri ilə sıx bağlıdır. Peşə təhsili gənclərin bilik və bacarıqlarını artırır, onların sosial və iqtisadi həyatda daha fəal iştirakına şərait yaradır. Eyni zamanda uşaqların hüquqlarının qorunması onların təhlükəsiz, ədalətli və dəstəkləyici mühitdə böyüməsini təmin edir. Bu iki sahənin inteqrasiyası dövlət siyasətində, eləcə də təhsil sistemində effektiv strategiyalara kömək edir. Bununla da gənc nəsil bacarıqlı, hüquqlarını bilən, məsuliyyətli vətəndaş kimi formalaşır.*

*Məqalədə uşaq hüquqlarının qorunması, o cümlədən gənc nəslin peşə təhsili perspektivləri həm nəzəri, həm də praktik aspektdən araşdırılır.*

***Açar sözlər:*** *uşaq, müdafiə, təhsilalan, təhsil, məktəb, şagird, peşə təhsili, kadr.*
***Key words:*** *child, protection, learner, education, school, student, vocational education, personnel.*
***Ключевые слова:*** *ребёнок, защита, обучающийся, образование, школа, ученик, профессиональное образование, кадр.*

Uşaqlar hər bir cəmiyyətin gələcəyidir və onların hüquqlarının müdafiəsi, o cümlədən peşə təhsili imkanlarının geniş şəkildə təmin edilməsi gənc nəslin inkişafında aparıcı rol oynayır. Belə ki, uşaq hüquqlarının müdafiəsi uşaq və yeniyetmələrin təhlükəsiz və dəstəkləyici mühitdə böyüməsinə imkan verən amillərdəndir. Uşaqların hüquqları BMT-nin Uşaq Hüquqları Konvensiyasında əks edilmişdir ki, bu da dünyada bütün dövlətlər üçün mühüm hüquqi öhdəliklər yaradır. Hüquqların qorunması uşaqların zehni inkişaf, sağlamlıq, psixoloji sağlamlıq, təhsil, sosial rifah və təhlükəsizlik kimi mühüm sahələrini əhatə edir [4]. Qeyd edilən hüquqların müdafiəsi aşağıdakı sahələrdə çox vacibdir:

1. ***Təhsil hüququ:*** Hər bir təhsilalanın keyfiyyətli və əlçatan təhsil ilə təmin edilməsi uşaqların peşə həyatına hazırlanmasında mühüm və önəmli faktordur. Təhsil heç də yalnız akademik bilikləri deyil, həm də sosial adaptasiya və etik bacarıqları da formalaşdırır.
2. ***Sağlam mühit və təhlükəsizlik:*** Uşaqlar daim təhlükəsiz və sağlam mühitdə doğulmalı, yaşamalı qidalanmalı, tibbi xidmət və psixoloji dəstək imkanlarından yararlanmalıdırlar.
3. ***Sosial və hüquqi müdafiə:*** Zorakılıq, istismar, bullinq və diskriminasiya kimi qanunsuz

halların qarşısının alınması məqsədi ilə dövlət və cəmiyyətin birgə tədbirləri vacibdir.

4. ***Sosial iştirak:*** Uşaqların öz fikirlərini düzgün ifadə etmək və qərar qəbuletmə zamanı qeyd edilən prosesdə iştirak etmək hüququ mütləq təmin edilməlidir. Bu, uşaqların gələcəkdə özgüvənlərinin artırılması, öz hüquqlarını sərbəst müdafiə etmək, gələcəkdə düzgün peşə seçmək üçün mühüm faktordur [3].




Uşaq hüquqlarının qorunması yalnız normativ aktlar və ya ümumilikdə qanunvericilik aktları ilə məhdudlaşmamalı, həmçinin təhsil və sosial proqramlar vasitəsilə reallaşdırılmalıdır. Eyni zamanda valideynlər, müəllimlər və dövlət qurumları arasında əməkdaşlıq da  mühüm rol oynayır.

**Gənc nəsil və peşə təhsili**

Peşə təhsili respublikamızda fasiləsiz təhsil sisteminin pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən və təhsilalanlar tərəfindən bilik, bacarıq və vərdişlərin mənimsənilməsini, onların ixtisaslarının daim artırılmasını, eyni zamanda zəruri əmək bacarıqlarına yiyələnmələrini təmin edən prioritet fəaliyyət sahəsidir. Peşə təhsili uşaqların, gənc nəslin potensial imkanlarını, bilik və bacarıqlarını, səriştələrini inkişaf etdirərək gələcəkdə iş həyatına hazırlayır, ölkənin düzgün kadr kapitalının inkişafına dəstək göstərir. Peşə təhsili aşağıdakı məqsədlərə xidmət edir:

*– Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının adət və ənənələrinə hörmət edən, ümumbəşəri dəyərləri qoruyan, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;*

*– sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq;*

*– təhsilalanlarda sahibkarlıq düşüncə tərzinin formalaşdırılması, onlara müasir qeyri-standart yanaşma və sahibkarlıq bacarıqlarının aşılanması istiqamətində həm nəzəri məlumatların, həm də praktiki bacarıqların öyrədilməsi məqsədi ilə müvafiq səriştələr əsasında təlim və təhsil proqramları (kurikulumlar) tərtib etmək;*

*– kollektiv daxilində birgə fəaliyyət və ünsiyyət mədəniyyəti, təbiətə və insanlara həssas münasibət, özünün və digərlərinin hüquqlarına hörmət hissi aşılamaq;*

*– məsuliyyət və cavabdehlik hissi, öz qüvvəsinə inam və iradə aşılamaq, sərbəst qərar qəbul etmək və müstəqil öyrənmək meyilinin təşəkkülü;*

*– nəzəri biliklərə və praktik bacarıqlara yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli*

*mütəxəssis-kadrlar hazırlamaq;*

*– sağlamlığın qorunması istiqamətində gigiyenik tələblərə və təhlükəsizlik qaydalarına əməl olunmasını təmin etmək;*

*– ehtiyac duyulan ixtisaslar üzrə əmək bazarının daim dəyişən tələbatının ödənilməsini təmin etmək [7].*

Peşə təhsili gənc nəslin əmək bazarına hazırlanmasında mühüm vasitədir. Peşə təhsili gənclərə nəinki praktik bilik və bacarıqlar verir, həmçinin onları real iş mühitinə hazırlayır. Gənc nəslin peşə təhsilinə yönəlməsində aşağıdakı sahələr mühüm rol oynayır.

1. ***Bacarıqların inkişafı:*** Gənclər iş həyatında tələb olunan texniki və peşəkar bacarıqlara yiyələnir.

2. ***Məşğulluq imkanları:*** Peşə təhsili gənclərin öz potensialına uyğun iş tapma şansını artırır və işsizliyin maksimum şəkildə qarşısını almağa kömək edir.

3. ***Sosial adaptasiya:*** Peşə təhsili gənclərin əməkdaşlıq, məsuliyyət və kommunikasiya bacarıqlarını inkişaf etdirir.

4. ***Özünü reallaşdırma:*** Gənclər öz potensiallarını kəşf edir və gələcəkdə peşəkar və fərdi inkişaf yollarını seçirlər.

Peşə təhsili yalnız məktəb və təlim mərkəzlərində deyil, həm də praktik təcrübə, mentorluq və ixtisaslaşmış proqramlar vasitəsilə dəstəklənməlidir:

***1. İnteqrasiya edilmiş proqramlar:*** Peşə təhsili və uşaqların hüquqlarını qoruyan proqramlar paralel olaraq həyata keçirilməlidir. ***2. Texnoloji dəstək:*** Onlayn formada keçirilən kurslar, interaktiv dərs və seminarlar və rəqəmsal platformalar uşaqların peşə təhsilini və hüquqi müstəvidə maarifləndirilməsini genişləndirir. ***3. Davamlı təlim:*** Düzgün təlim və mentorluq proqramları ilə uşaq və gənclərin bacarıqları və hüquqi bilikləri davamlı olaraq daim inkişaf etdirilməlidir. ***4. Sosial dəstək:*** Dövlət və qeyri-dövlət qurumları əməkdaşlıq etməli, uşaqların həm hüquqi, həm də sosial ehtiyaclarını təmin etməlidir. Bu tədbirlər gənc nəslin həm hüquqlarının qorunmasını, həm də peşə bacarıqlarının inkişafını təmin edəcəkdir [6].

Belə ki, təhsilin əlçatan olması, həmçinin keyfiyyətli peşə təhsili imkanlarının yaradılması uşaqların hüquqlarına hörmət göstərilməsi, onların şəxsiyyət kimi cəmiyyətin parçası olduğuna sübut deməkdir. O cümlədən peşə təhsili gənclərin sosial-iqtisadi inkişafına mühüm töhfə verir, onların hüquqlarının qorunmasına və özlərini müdafiə etməsinə imkan yaradır. Davamlı peşə təhsili proqramları əsasında uşaqların və gənclərin bacarıqları artır, onlar əmək bazarına hazırlanır və gələcəkdə hüquqlarını qorumağa daha da hazır edir. Dövlətin bu sahədə strategiyası həm təhsil sistemində, həm də sosial siyasətdə inteqrasiya olunmuş yanaşmaları tələb edir [1].

Uşaq hüquqlarının müdafiəsi və gənc nəslin peşə təhsili perspektivlərinin inkişafı bir-biri ilə sıx əlaqədə olan sahələrdir. Peşə təhsili gənclərin bilik və bacarıqlarının artırılmasına kömək edir, həmçinin təhsilalanların sosial-iqtisadi həyatda daim daha fəal olmasına imkan yaradır. Onların hüquqlarının qorunması isə uşaqların təhlükəsiz, motivasiyaedici və dəstəkləyici mühitdə inkişaf etməsini təmin edir. Qeyd edilən iki sahənin inteqrasiyası dövlət siyasətində və təhsil sistemində düzgün və səmərəli strategiyaların qurulmasına dəstək göstərir. Nəticədə gənc nəsil daha bacarıqlı, hüquqlarına sahib çıxan və məsuliyyətli vətəndaş kimi formalaşır [7].

**Praktiki nümunələr**

Bir çox inkişaf etmiş ölkələrdə uşaqların hüquqlarının qorunması və peşə təhsili sahəsində uğurlu proqramlar həyata keçirilmişdir. Məsələn, Aİ (Avropa İttifaqı) ölkələrində təhsil sistemində peşə təhsili proqramları və hüquqi maarifləndirmə dərsləri inteqrasiya olunmuş şəkildə həyata keçirilir. Azərbaycanda pilot layihələr ümumi təhsil müəssisələrində peşə təhsilinin inkişafı məqsədi ilə kurslar, uşaq hüquqlarının müdafiəsinə dair seminarlar keçirilir, şagirdlərin sosial mühitdə şəsiyyət kimi formalaşmasına və peşə təhsili üzrə inkişafına dəstək verilir [4].

Beynəlxalq layihələr çərçivəsində UNESCO və UNICEF tərəfindən təsdiq edilən və dəstəklənən




proqramlar uşaqların, gənclərin, təhsilalanların hüquqlarını qorumaq və onların peşə bacarıqlarını artırmaq məqsədi daşıyır. Qeyd edilən təcrübələr sübut edir ki, uşaqların hüquqlarının qorunması və peşə təhsili inteqrasiya edilmiş şəkildə inkişaf etdikdə, gənc nəsil həm hüquqlarına sahib çıxan, həm də bacarıqlı və əmək bazarına hazır fərdlər kimi yetişir [2].

**Uşaq hüquqlarının müdafiəsində qeyri-hökumət təşkilatlarının rolu**

Dövlət strukturlarının həyata keçirdiyi tədbirlərlə yanaşı, qeyri-hökumət təşkilatları (QHT-lər) da uşaq hüquqlarının müdafiəsində əvəzsiz rol oynayır. Xüsusilə risk qrupuna daxil olan – valideyn himayəsindən məhrum, məcburi köçkün, əlilliyi olan və ya zorakılığa məruz qalmış uşaqlar üçün QHT-lər həm hüquqi, həm psixoloji, həm də sosial dəstək xidməti göstərirlər. Azərbaycanda "Uşaq Hüquqları Alyansı", "Təmiz Dünya", "Azərbaycan Uşaqlar Birliyi" kimi QHT-lər uşaqların rifahı naminə müxtəlif layihələr həyata keçirirlər. Bu layihələrdə uşaqların təhsilə cəlb olunması, peşə kurslarına yönləndirilməsi, psixososial reabilitasiya proqramları və hüquqi maarifləndirmə önəmli yer tutur. QHT-lərlə dövlət orqanlarının əməkdaşlığı daha sistemli və uzunmüddətli layihələr üçün zəmin yaradır. Bu əməkdaşlıq çərçivəsində regionlarda sosial xidmət mərkəzlərinin yaradılması və könüllülərin uşaq hüquqlarının təbliğində iştirakı genişlənməlidir [8].

**İnklüziv təhsil və peşə hazırlığı: bərabər imkanlar prinsipi**

Çağdaş dövrdə təhsildə inklüzivlik hər bir uşağın, xüsusilə xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsilə inteqrasiyası fundamental hüquq kimi tanınan amillərdəndir. Peşə təhsili müəssisələri hər bir təhsilalana bərabər imkanların yaradılması və onların cəmiyyətə uyğun adaptasiyası, eləcə də inteqrasiyasında mühüm rol oynayır. Azərbaycan bu sahədə mühüm addımlar atsa da, fiziki mühitin əlçatanlığı (liftlər, panduslar, xüsusi avadanlıqlar), tədris materiallarının uyğunlaşdırılması və inklüziv metodikanın tətbiqi hələ də tam şəkildə yerinə yetirilmir. Bu isə hüquqi bərabərlik prinsipinə ziddir və təkmilləşdirilməlidir.

Peşə təhsili müəssisələrində inklüziv tədrisin həyata keçirilməsi üçün aşağıdakılar nəzərə alınmalıdır:

– *müəllimlər üçün xüsusi təlimlər keçirilməli;*
– *kurikulumlar adaptasiya edilməli;*
– *psixoloq və loqopedlərin iştirakı təmin olunmalıdır.*

Belə tədbirlər uşaqların bərabər şəkildə bacarıqlarını inkişaf etdirməsinə və gələcək əmək həyatında tamhüquqlu iştirakına şərait yaradacaqdır.

**Gənclərin peşə təhsilinə marağının artırılması istiqamətində işlər**

Peşə təhsili yalnız təhsil müəssisəsinin deyil, ümumilikdə cəmiyyətin əsas marağında olmalıdır.

Bu təhsil və tədrisə olan marağın artırılması məqsədi ilə aşağıdakı mümkün mexanizmlər tətbiq edilə bilər:

***1. Karyerayönümlü məsləhət xidmətləri:*** Orta məktəblərdə şagirdlərin maraq və potensialına uyğun olaraq onlara peşə seçimi ilə bağlı məsləhət verilməlidir.

***2. Media vasitəsilə maarifləndirmə:*** Televiziya, sosial media və onlayn platformalarda uğur qazanmış peşə sahiblərinin hekayələri paylaşılmalı, peşə təhsilinin dəyəri təbliğ olunmalıdır.

***3. Təqaüd və stimullaşdırıcı proqramlar:*** Aztəminatlı ailələrdən olan və peşə təhsilinə yönələn şagirdlər üçün aylıq təqaüdlər, avadanlıq dəstəyi və güzəştli nəqliyyat təmin olunmalıdır.

***4. İşəgötürənlərlə əməkdaşlıq:*** Peşə təhsili müəssisələri real istehsalatla əməkdaşlıq etməli, təhsilalanlara real təcrübə keçmək və daha sonra işlə təmin olunmaq imkanları ilə tanış etməlidir [3, s.86].

Bu tədbirlər peşə təhsilinə yanaşmanı dəyişərək gənc və uşaqların bu istiqamətə marağını artıracaq və uşaqların hüququ olan “təhsildə seçim azadlığı” prinsipini reallaşdıracaqdır.

**Rəqəmsal dövrdə peşə təhsili və uşaqların müdafiəsi**

Texnologiyanın sürətli inkişafı və rəqəmsal bacarıqların daimi olaraq önəminin artması gənclərin rəqəmsal peşələrə və sahələrə marağını artırır. Proqramlaşdırma, qrafik dizayn, 3D modelləşdirmə, rəqəmsal marketinq kimi sahələr artıq “ənənəvi peşə” anlayışına yeni çalarlar gətirir. Bu kontekstdə peşə təhsili sisteminin çağırışlara uyğun şəkildə yenilənməsi zəruridir. Xüsusilə:

– *rəqəmsal kurslar və onlayn tədris resursları inkişaf etdirilməli;*
– *müəllimlər yeni texnologiyalarla işləmək üçün ixtisasartırma kurslarına cəlb olunmalı;*
– *uşaqların elektron, rəqəmsal mühitdə təhlükəsizliyini təmin edən mexanizmlər hazırlanmalıdır.*

Uşaqların rəqəmsal sahəyə cəlb olunması ilə yanaşı, onların kiber zorakılıq, internet asılılığı və şəxsi məlumatların yayılması kimi risklərdən qorunması da mühüm vəzifədir. Bu baxımdan həm hüquqi çərçivə, həm də valideyn və müəllim təlimləri genişləndirilməlidir.

**Nəticə.** Bu gün uşaq hüquqlarının müdafiəsi və gənc nəslin peşə təhsilinə istiqamətləndirilməsi yalnız sosial məsələ deyil, həm də iqtisadi inkişafın və milli təhlükəsizliyin vacib komponentidir. Ümid edirik ki, uşaqlara vaxtında və düzgün istiqamət göstərməklə, eləcə də onları bacarıq və maraqlarına uyğun ixtisaslara yönləndirməklə gələcəkdə işsizlik, sosial təcrid, qanun pozuntuları kimi bir çox problemin qarşısını almaq olar.

Bunun üçün strateji baxımdan aşağıdakı addımlar atılmalıdır:

– *uşaq hüquqları və peşə təhsili siyasəti bir-birini tamamlayan vahid strategiya şəklində hazırlanmalıdır;*

– *bu sahədə illik hesabatlar hazırlanmalı və uşaqların rifahı üzrə real göstəricilər ictimaiyyətə təqdim edilməlidir.*

## İstifadə edilmiş ədəbiyyat


1. Elm və Təhsil Nazirliyinin rəsmi saytı https://edu.gov.az/az/news-and-updates/17573
2. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu, 19 may 1998-ci il, №499-IQ.
3. Mikayılova Ü., Axundova Ü. Uşaq İnkişafı Metodikası. “Qanun” nəşriyyatı, 2011.
4. Council of Europe-www.coe.int https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child
5. Hüseynzadə R., Əzizova Z. Pedaqogika. Bakı, “Mütərcim” nəşriyyatı, 2021.
6. UNİCEF-Technical and Vocational Education and Training as a tool against child labour Technical and Vocational Education and Training as a tool against child labour https://www.unicef.org/turkiye/en/press-releases/technical-and-vocational-education-and-training-tool-against-child-labour

7. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu, 24 aprel 2018-ci il, №1071-VQ.
8. QHT.AZ
https://www.qht.az/details/az/30390
9. Convention on the Rights of the Child Adopted and opened for signature, ratification and accession by General Assembly resolution 44/25 of 20 November 1989 entry into force 2 September 1990, in accordance with article 49
https://www.ohchr.org/sites/default/files/Documents/ProfessionalInterest/crc.pdf
10.https://www.unicef.org/turkiye/en/press-releases/technical-and-vocational-education-and-training-tool-against-child-labour

**K.Farajov**

## Protection of children's rights and prospects for vocational education of the younger generation

**Abstract**

The protection of children's rights and the development of vocational education opportunities for the young generation are closely interconnected. Vocational education enhances the knowledge and skills of youth, enabling them to participate more actively in social and economic life. Simultaneously, safeguarding children's rights ensures their growth in a safe, fair, and supportive environment. The integration of these two areas contributes to effective strategies in government policy and the education system. As a result, the young generation develops into skilled, rights-aware, and responsible citizens.

The article examines the protection of children's rights, including the prospects for vocational education of the younger generation, from both theoretical and practical perspectives.

**К.Фараджов**

## Защита прав ребёнка и перспективы профессионального образования молодого поколения

**Аннотация**

Защита прав детей и развитие возможностей профессионального образования для молодого поколения тесно взаимосвязаны. Профессиональное образование повышает знания и навыки молодежи, позволяя им активнее участвовать в социальной и экономической жизни. Одновременно защита прав детей обеспечивает их рост в безопасной, справедливой и поддерживающей среде. Интеграция этих двух областей способствует эффективным стратегиям в государственной политике и системе образования. В результате молодое поколение формируется как компетентные, осведомленные о своих правах и ответственные граждане.

В статье рассматривается защита прав детей, включая перспективы профессионального образования подрастающего поколения, как с теоретической, так и с практической точки зрения.